UOT 658:330.7

# Milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsində təkmil vergi sisteminin rolu



**Şərifov Əziz Əşrəf oğlu***
Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı

## Xülasə

*Tədqiqatın məqsədi* - milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsində təkmil vergi sisteminin rolunun tədqiqi.

*Tədqiqatın metodologiyası* - iqtisadi təhlilin retrospektiv, müqayisəli və sintez metodları.

*Tədqiqatın nəticələri* - bir sıra inkişaf etmiş ölkələrin mövcud vergi təcrübəsinin öyrənilməsi və Azərbaycanda vergi sisteminin təkmilləşdirilməsində müvafiq qabaqcıl təcrübədən faydalanmaq istiqamətlərinin müəyyənləşdirilməsi.

*Tədqiqatın məhdudiyyətləri* - bütünlüklə inkişaf etmiş dövlətlərin vergi işini səciyyələndirən dəqiq məlumatların əldə olunması çətinlikləri və bu əsasda daha müvafiq ümumiləşdirmələrin aparılması tələbi.

*Tədqiqatın praktiki əhəmiyyəti* - Azərbaycan Respublikasında vergi mexanizminin təkmilləşdirilməsi istiqamətində elimi təhlili mənbə kimi istifadə imkanlığı.

*Tədqiqatın orijinallığı və elmi yeniliyi* - milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi istiqamətində təkmil vergi sisteminin başlıca prioritetlərinin təyini.

**Açar sözlər:** *milli iqtisadiyyat, vergi sistemi , vergi mexanizmi.*

## 1. Giriş

Milli iqtisadiyyatın inkişaf perspektivləri bir sıra daxili və xarici amillərdən asılı olur. Aparıcı dövlətlərin təcrübəsi sübut edir ki, milli iqtisadiyyatın dinamik inkişafına real imkanlar yaradan əsas şərtlərdən biri ölkədə təkmil vergi sisteminin yaradılması və onun çevik fəaliyyət göstərməsidir.

* Azərbaycan Dövlət İqtisad Universiteti. Bakı, İstiqlaliyyət küçəsi, 6.
ezizserifov@mail.ru



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

Müstəqilliyin üçüncü onilliyinə qədəm qoyan respublikamızda son illərdə qərarlaşan təkmil vergi sistemi iqtisadiyyatın inkişafının təkanverici amilinə çevrilmişdir. Vergi münasibətlərinin, fəaliyyətdə olan vergi sisteminin ölkənin sosial-iqtisadi həyatında əvəzsiz rol oynaması bu mövzunun həmişə diqqət mərkəzində olmasını, bu sahədə daim təkmilləşmələr, tədqiqatlar aparılmasını tələb edir. Təqdim olunan məqalədə də əsas məqsəd bu tələbdən irəli gəlir. Məqalədə respublikamızda son dövrlərdə formalaşan vergi sisteminin səciyyəvi tərəfləri, üstün cəhətləri öz təhlilini tapmışdır. Respublikada fəaliyyət göstərən vergi sisteminin təkmilləşməsi istiqamətində həyata keçirilən əməli tədbirlər nəzəri və praktiki baxımdan əsaslandırılmış, gələcək və görüləsi işlərin zəruriliyinə xüsusi diqqət yetirilmişdir.

Ölkə iqtisadiyyatının strateji inkişafının təmin olunmasında təkmil vergi sisteminin yaradılmasını verginin mahiyyətini təzahür etdirən funksiyalar gerçəkləşdirir. Dövlət elə vergi mexanizmindən istifadə etməlidir ki, onun fəaliyyəti maliyyə ehtiyatları yaratmaqla yanaşı, milli iqtisadiyyatın inkişafına real şərait yaratsın.

Vaxtilə sovet iqtisadi sisteminin tərkibində olmuş, müstəqillik yoluna çıxdıqdan sonra azad bazar iqtisadiyyatı yolunu seçən ölkələrdə səmərəli vergi sisteminin yaradılması çoxlu problemlərlə üzləşir. Bütün problemlərə və çətinliklərə baxmayaraq, postsovet məkanında müstəqilliyi bərpa edən respublikalardan biri olan Azərbaycanda yeni vergi münasibətlərinin formalaşması sahəsində pozitiv təcrübə daha çox nəzərə çarpır. Son illərdə respublikamızda əldə edilən sosial-iqtisadi nailiyyətlərdə ölkənin vergi sistemi də əhəmiyyətli rol oynamaqdadır. Əlverişli vergi mühitinin yaradılması, təkmil vergi mexanizminin formalaşması prosesi uzun və ziddiyyətli yol keçmişdir.

Azərbaycanda mövcud olan vergi sistemini inkişaf etmiş ölkələrdə fəaliyyət göstərən vergi münasibətləri təhlili müqayisəsini verilməklə yanaşı, müsbət təcrübədən istifadə olunmasının zəruriliyi də qeyd edilir.

## 2. Azərbaycanda müasir vergi sisteminin tarixi

Respublikanın müasir vergi sistemi, əsasən, 1991-1992-ci illərdə, yəni bazar iqtisadiyyatına keçid və əsaslı iqtisadi dəyişikliklər dövründə formalaşmağa başlamışdır. O zaman vergi münasibətlərinin tənzimlənməsi təcrübəsinin olmaması, ölkədəki iqtisadi və sosial böhran vergi sisteminin formalaşmasına birbaşa təsir göstərirdi. Qeyd olunmalıdır ki, Azərbaycanda mövcud olan vergi sisteminin yaradılmasında xarici dövlətlərin təcrübəsindən geniş istifadə olunmuşdur. Bu respublikanın vergi sisteminin ümumi strukturu və qurulması prinsiplərinin beynəlxalq standartlara daha çox uyğunlaşdırılmasına imkan yaratmışdır [1].

1990-1993-cü illərdə respublikada bazar iqtisadiyyatının tələblərinə uyğun olan vergi sisteminin formalaşması prosesi gedirdi. Bu dövrdə vergi sistemində əhəmiyyətli dəyişikliklər edilmişdir. Bu dəyişikliklərdən biri də 1992-ci ildə əlavə

dəyər vergisinin tətbiq olunmasıdır. Əlavə dəyər vergisi tətbiq olunduqdan sonra ölkəmizdə dövriyyə vergisinin alınması dayandırılmışdır. Belə verginin tətbiqi ilə ölkəmizdə büdcə gəlirlərinin formalaşmasında dolayı vergilərin rolu əhəmiyyətli dərəcədə artmışdır. İlk dəfə ƏDV (əlavə dəyər vergisi) tətbiq olunduqda bu verginin dərəcəsi 28 faiz idi .

Məlumdur ki, dövlətin fiskal siyasəti vergi sisteminin fəaliyyəti ilə birbaşa əlaqəlidir. Respublikada 1990-cı illərin ikinci yarısından başlayaraq təkmil vergi siyasətinin həyata keçirilməsi sayəsində fiskal siyasətin reallaşması üçün güclü baza yaradılmışdır. Dövlət büdcəsinin formalaşmasında vergilərin rolu xeyli artmışdır. Son dövrlərdə birbaşa və dolayı vergilərin dərəcələri daha da rasionallaşdırılmışdır və onların büdcəyə daxil olmasında təkmil mexanizmlərdən istifadə olunur. Dövlət büdcəsi və təkmil vergi sistemi respublikada mövcud olan maliyyə-pul ehtiyatlarını fəal yenidənbölgü mexanizmlərinə çevrilmişdir.

Dövlətin fiskal siyasətinin həyata keçirilməsində vergi ödəyicilərinin sayının artırılmasına üstünlük verilməsini məqsədəuyğun hesab etmək olar. Dolayı vergi ödəyənlərin sayının çoxaldılması siyasətinə də üstünlük verilməli, dolayı vergilərin ödənilməsi mənbələri kimi çıxış edən fəaliyyət növlərinin sayı artırılmalıdır. Dövlət bu sahələrdə çalışanların fəaliyyətlərinə nəzarəti də gücləndirməlidir [2].

Ümummilli lider Heydər Əliyevin 11 fevral 2000-ci il tarixli fərmanı əsasında dövlətin vergi siyasətinin həyata keçirilməsi, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam həcmdə yığılmasını təmin edən mərkəzi icra hakimiyyəti orqanı-Azərbaycan Respublikasının Vergilər Nazirliyi yaradılmışdır.

Vergi Məcəlləsində nəzərdə tutulduğu kimi, ölkəmizin vergi sisteminin təkmilləşdirilməsi aşağıda göstərilən məsələləri əhatə edir [3]:

- ❖ sabit vergi sisteminin formalaşdırılması;
- ❖ dövlət maraqlarının və şəxsi maraqların tarazlaşdırılmasını təmin edən, sahibkarlığın inkişafına, investisiya qoyuluşunun fəallaşdırılmasına, insanların maddi rifahının yüksəldilməsinə şərait yaradan rasional vergi münasibətlərinin formalaşdırılması;
- ❖ vergi ödəyicilərinin hüquqlarının qorunması, eyni zamanda vergi sahəsində qanun pozuntularına görə məsuliyyət sisteminin təkmilləşdirilməsi;
- ❖ vergi inzibatçılığının təkmilləşdirilməsi və s.

### 3.Vergi sisteminin təşkilati prinsipləri

Ölkədə vergi sisteminin qurulmasında onun təşkilati prinsipləri mühüm rol oynamışdır. Vergi sisteminin təşkilati prinsipləri dedikdə vergi sistemi qurularkən əsas götürülən prinsiplər nəzərdə tutulur. Vergi sisteminin inkişafının və idarə olunmasının əsas istiqamətlərini müəyyənləşdirən bu prinsiplər respublikamızın konstitusiyasında təsbit olunmuşdur. Hal-hazırda ölkədə fəaliyyət göstərən vergi sistemi

qeyd olunan təşkilati prinsiplərin bəzilərinə tamamilə, bəzilərinə isə qismən uyğun gəlir [4]:

1. Vahidlik prinsipi;
2. Elastiklik prinsipi;
3. Stabillik prinsipi;
4. Vergilərin çoxluğu prinsipi;

1. Vergi sistemində vahidlik prinsipinin gözlənilməsi ölkənin ali qanunvericilik aktında öz əksini tapmışdır. Belə ki, vergi siyasəti də daxil olmaqla maliyyə siyasətinin vahidliyi Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələrində təsbit olunmuşdur. Konstitusiyaya görə, hökumət ölkədə vahid maliyyə və pul-kredit siyasətinin həyata keçirilməsini təmin etməlidir. Bu, ölkədə iqtisadi məkanın vahid olması deməkdir. Yəni ölkə ərazisində gömrük sərhədlərinin müəyyənləşdirilməsinə, əmtəələrin sərbəst hərəkətinə maneçilik törədilməsinə icazə verilmir.

2. Məlumdur ki, elastiklik prinsipi XIX əsrin sonlarında, vergitutmada ictimai maraqların xüsusi maraqlarla müqayisədə prioritetliyini göstərən alman iqtisadçısı Adolf Vaqner (*1835-1917*) tərəfindən formalaşdırılmışdır. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, vergilər və vergi mexanizmi dövlətin ehtiyaclarından və imkanından asılı olaraq vergi yükünün azaldılması və ya artırılması istiqamətində operativ olaraq dəyişdirilə bilər. Yəni ölkədə ictimai-siyasi və iqtisadi vəziyyət dəyişdikdə dövlət, yeni iqtisadi və siyasi şəraitə adaptasiya olunmaq və adekvat reaksiya vermək imkanına malik olmalıdır.

Bu prinsip Azərbaycanın vergi sistemi üçün də xarakterikdir. Məsələn, 1992-ci ildə Almaniyada gəlir vergisi üzrə qanunvericiliyə 125 düzəliş edilmişdir. Azərbaycan Respublikasında elastiklik prinsipinin tətbiqi vergi ödəyicilərində vergi sisteminin gələcək inkişafı barədə müəyyənliyin qorunub saxlanmasına əməl etməklə həyata keçirilir. Belə ki, respublikanın Vergi Məcəlləsində vergi dərəcələrinin maksimum həddi təsbit edilmiş və qeyd edilmişdir ki, bundan sonra vergi dərəcələrinə edilən dəyişikliklər ancaq vergi dərəcələrinin azalması istiqamətində ola bilər. Respublikanın vergi sisteminin elastikliyini göstərən cəhətlərdən biri də vergi qanunvericiliyində olan hüquqi boşluqların müntəzəm olaraq aradan qaldırılmasıdır.

3. Stabillik prinsipinin məzmununa görə vergi sistemi, vergi islahatları aparılana qədər bir neçə il ərzində stabil fəaliyyət göstərməlidir. Vergi islahatları istisna hallarda və ciddi müəyyən olunmuş qaydada aparılmalıdır. Bir çox xarici ölkələrdə olduğu kimi, Azərbaycan Respublikasında da bu prinsipə əsasən əməl edilir.

4. Vergilərin çoxluğu prinsipi bir neçə aspekti özündə əks etdirir. Bunlardan da əsas olan odur ki, dövlətin vergi sistemi diferensial vergilərə və vergitutma obyektlərinə istinad etməlidir. Fərqli vergilərin kombinasiyası elə bir sistem yaratmalıdır ki, bu sistem vergi yükünü tədiyyəçilər arasında düzgün bölə bilsin. Bu prinsipin müsbət tərəflərindən biri odur ki, dövlət büdcəsi vahid vergi növü əsasında formalaşmır. Büdcənin müxtəlif vergilər əsasında formalaşması onun mədaxil hissəsinin

potensial mənbələrini artırır. Həm də, vergilərin çoxluğu çevik vergi siyasəti yeritməyə, ümumi vergi yükünü az hiss olunan etməyə, istehlaka və yığıma təsir etməyə imkan verir [5].

Azərbaycanda hazırda fəaliyyət göstərən vergi sistemi qarşısında qoyulan tələblər dövlətin iqtisadi siyasətinə uyğun olmaqla, iqtisadi inkişafın dəstəklənməsinə, verginin funksiyalar arasında tarazlığın təmin edilməsinə xidmət edir. Belə ki, Vergi Məcəlləsinə əsasən vergitutma ümumi, bərabər və ədalətli olmalı, iqtisadi cəhətdən əsaslandırılmalı, Konstitusiya hüquqlarının və azadlıqlarının həyata keçirilməsinə maneçilik törədən, ölkənin vahid iqtisadi məkanını pozan, malların və pul vəsaitlərinin azad yerdəyişməsini bilavasitə və ya dolayısı ilə məhdudlaşdıran vergilər tətbiq edilməməli, heç bir şəxs əldə etdiyi gəlirdən eyni növ vergini bir dəfədən artıq ödəməyə məcbur edilməməli, vergilər siyasi, ideoloji, etnik, konfessional və vergi ödəyiciləri arasında olan digər xüsusiyyətlər əsas götürülməklə müəyyən edilməməli və diskriminasiya xarakteri daşımamalı, mülkiyyət formasından və ya fiziki şəxslərin vətəndaşlığından, kapitalın yerindən asılı olaraq vergilərin fərqli dərəcələri tətbiq edilməməli, vergilər haqqında qanunvericilik elə tərzdə formalaşdırılmalıdır ki, hər kəs hansı vergiləri, hansı qaydada, nə vaxt və hansı məbləğdə ödəməli olduğunu bilməli, vergilər haqqında qanunvericiliyin bütün ziddiyyətləri və aydın olmayan məqamları vergi ödəyicisinin xeyrinə şərh edilməli, vergi ödəyicilərinin vergilərə dair normativ hüquqi aktlarla azad tanış olmaq imkanı təmin edilməli, vergi sistemi sahibkarlıq və investisiya fəaliyyətini təşviq etməlidir [3].

## 4. Vergi mexanizminin müasirləşdirilməsi

Vergi qanunvericiliyinin müasirləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində tədbirlər hər il davam etdirilib. Bununla bağlı mütəmadi olaraq Vergi Məcəlləsinə vergi ödəyicilərinin hüquqlarının qorunması, vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi nəzarətinin gücləndirilməsi, əlverişli vergi mühitinin yaradılması, optimal vergi dərəcələrinin müəyyənləşdirilməsi və qanunvericiliyin sadələşdirilməsi istiqamətində dəyişikliklər edilir.

Son on il ərzində Azərbaycan Respublikasının Vergi Məcəlləsinə də xeyli əlavələr və dəyişiklik edilib. 2009-cu ildə bütün dünyanı bürüyən qlobal maliyyə böhranına baxmayaraq, ölkə Prezidentinin təşəbbüsü ilə real sektorun dəstəklənməsi məqsədilə vergi yükünün azaldılması istiqamətində qanunvericiliyə bir sıra dəyişikliklər edildi. 2010-cu ildən mənfəət vergisinin dərəcəsi 22 faizdən 20 faizə, fiziki şəxslərin gəlir vergisinin dərəcəsinin maksimal həddi 35 faizdən 30 faizə endirildi. Qeyd edək ki, ölkə iqtisadiyyatına investisiya qoyuluşunun genişləndirilməsi və müəssisələrin istifadəsində qalan maliyyə vəsaitlərinin artırılması məqsədilə mənfəət vergisinin dərəcəsi əvvəlki illərdə də mərhələlərlə aşağı salınaraq 2001-2006-cı illər ərzində 27 faizdən 22 faizə endirilmişdir [3].

Vergiqoyma mexanizminin təkmilləşdirilməsi öz-özlüyündə digər iqtisadi tənzimləmə alətlərindən təcrid olunmuş şəkildə baş verə bilməz. Bunun üçün vergi siyasətinə qeyd olunduğu kimi, makroiqtisadi siyasət və bundan irəli gələn büdcə-vergi siyasəti kontekstində baxılmalıdır. Sözsüz ki, vergi sistemi vergi boşluğunun ildən-ilə azalmasına şərait yaratmalıdır. Bununla yanaşı büdcəyə səfərbər olunan vəsaitlərin həm zəruri istiqamətlərə ayrılmasına, həm də ayrılmış vəsaitlərin tam həcmdə təyinatına uyğun xərclənməsi üçün maliyyə nəzarətinin yüksək səviyyəsinin də təşkili təmin olunmalıdır.

Maliyyə nəzarəti elə bir səviyyədə təşkil olunmalıdır ki, vergi ödəyicilərində onlardan toplanan vergilərin öz təyinatına uyğun xərclənməsində heç bir şübhə yaranmasın. Yalnız belə şəffaf büdcə sistemi qurmaqla vergi siyasətinin əsas strateji hədəflərindən biri olan vergilərin ödənilməsinin könüllülük səviyyəsinin artırılması mümkündür.

Könüllülük səviyyəsi artdıqca, ödəməmə risklərinin səviyyəsi aşağı düşür, beləliklə də vergi nəzarətinin əhatə dairəsini daraltmaq və tezliyini azaltmaq imkanı yaranır ki, bu da vergi vahidinin daha az xərclərlə yığılmasına imkan verir.

Həqiqətdir ki, düzgün qurulmuş vergi sistemi yalnız dövlətin maliyyə ehtiyaclarına olan tələbatlarını təmin etməməli, həm də vergi ödəyicilərinin sahibkarlıq fəaliyyətlərinə olan marağını artırmalı və eyni zamanda onları təsərrüfat fəaliyyətinin səmərəliliyinin artırılmasına həvəsləndirməlidir. Təsərrüfat subyektlərinə düşən vergi yükü dövlətin həyata keçirdiyi vergi siyasətinin nəticəsi olmaqla, vergi sisteminin keyfiyyət xarakteristikası sayılır.

Azərbaycan Respublikasında vergi yükünün azaldılması ilə bağlı mövcud olan digər xarakterik xüsusiyyətlərdən biri odur ki, ölkədə kənd təsərrüfatı istehsalçıları torpaq vergisindən başqa bütün vergiləri ödəməkdən azaddırlar.

Vergi yükü müəyyən edilən zaman nəzərə alınmalı faktorlardan biri də borclar problemidir. Qeyd edək ki, son illərdə Azərbaycan Respublikasında bu faktorun vergi yükünə bütövlükdə təsiri böyük olmamışdır.

Azərbaycan Respublikasında makroiqtisadiyyat səviyyəsində hesabladığımız vergi yükü göstəricisini inkişaf etmiş ölkələrlə müqayisə etdikdə bu göstəricinin bir sıra inkişaf etmiş ölkədən az olması müşahidə olunur. Bununla belə bu heç də nəticə olaraq vergi ödəyicilərinin üzərinə düşən vergi yükünün inkişaf etmiş ölkələrlə müqayisədə az olması demək deyil. Respublikada vergi yükü hesablanan zaman hesablamalar zamanı nəzərə alına bilməyən faktorlar da diqqətə alınmalıdır.

Respublikamızda birbaşa vergilərin strukturunu inkişaf etmiş ölkələrlə müqayisə etdikdə görürük ki, respublikamızın vergi sisteminin əsas fərqləndirici cəhətlərindən biri fiziki şəxslərdən gəlir vergisinin büdcə daxilolmalarında xüsusi çəkisinin az olmasıdır. Avropa ölkələrində vergi daxilolmalarının 30 faizə qədəri fiziki şəxslərdən gəlir vergisinin payına düşür. Respublikamızda isə 2010-cu ildə bu verginin xüsusi çəkisi 13,7 faiz olmuşdur [6].

## 5. Nəticə

Fikrimizcə, Azərbaycan Respublikasının iqtisadi inkişafında keçid mərhələsinin başa vurulması və vergi inzibatçılığının bugünkü inkişaf səviyyəsi bizə əsas verir deyək ki, fiziki şəxslərdən gəlir vergisi üzrə köklü islahatların həyata keçirilməsi vaxtı çatmışdır. Bu islahatlar qanunvericilikdə öz əksini tapmış ümumi bəyannamə sisteminin tətbiq edilməsindən ibarət olmalıdır. Qeyd edək ki, bu istiqamətdə Vergilər Nazirliyi tərəfindən mərhələli şəkildə işlər görülür. Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi Dövlət Proqramında 2005-2007-ci illərdə fiziki şəxslərin ümumi gəlirləri haqqında ümumi bəyannamə sisteminə keçmək üçün menecment, texniki ləvazimat və proqram təminatı üzrə beynəlxalq təcrübənin öyrənilməsi və tələb olunan insan, texniki və maliyyə resurslarının qiymətləndirilməsi nəzərdə tutulmuşdu. Bundan başqa, planda ölkədə fiziki şəxslərin ümumi gəlirləri haqqında bəyannamənin verilməsinə keçmək üçün Dövlət Proqramı layihəsinin hazırlanacağı göstərilmişdi. Azərbaycan Respublikasında bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi üçün kifayət qədər iş görülmüş və xeyli təcrübə toplanmışdır. Bundan başqa vergilərə olan münasibətin dəyişdirilməsi üçün təbliğat işləri gücləndirilmiş, bugünkü məktəblilərin, sabahkı potensial vergi ödəyicisi olacağı nəzərə alınaraq məktəblərdə vergilərlə bağlı fənnin tədris olunmasına nail olunmuşdur.

Azərbaycanda vergi ilə bağlı bir sıra problemlər də mövcuddur. Respublikanın vergi sistemində mövcud olan əsas problemlərdən biri vergi borclarının yüksək səviyyədə olmasıdır.

Respublikamızın vergi siyasətinin əsas istiqamətlərindən biri də dövlətin iqtisadi siyasətinə uyğun vergi güzəştlərinin tətbiqidir. Vergi güzəştlərinin əsaslı olması və iqtisadi artımın təmin edilməsinə gətirib çıxartması bu güzəştlərin qiymətləndirilməsi üçün əsas meyarlardan biridir. Bununla yanaşı tətbiq edilən güzəştlər kifayət qədər sadə olmalı və sui-istifadə hallarına yol verməməlidir.

Hal-hazırda Azərbaycan Respublikasında tətbiq edilən və “investisiya təyinatlı” adlandıra biləcəyimiz əsas vergi güzəştləri kənd təsərrüfatı istehsalçılarının torpaq vergisi başqa bütün vergilərdən azad olması və əhalinin əmanətləri üzrə ödənilən dividendlərin gəlir vergisindən azad olmasıdır. Bundan başqa dünya iqtisadi böhranı şəraitində aqrar sahədə inkişafı stimullaşdırmaq məqsədilə dövlət başçısının fərmanı ilə kənd təsərrüfatı istehsalçıları 5 il müddətinə, banklara əmanətlərin cəlb olunmasını stimullaşdırmaq məqsədilə isə əmanətlərdən əldə edilən faiz gəlirləri vergidən azad edilmişdir.

Banklar və digər kredit təşkilatları tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən faizlər 2010-cu il yanvarın 1-dən daha 3 il müddətinə vergidən azad edilmişdir.

**Ədəbiyyat siyahısı**
1. Musayev A.F. "Vergi siyasətinin iqtisadi problemləri" (2004), Bakı: Elm, 435 s.
2. Kəlbiyev Y.A. "Vergi sistemi iqtisadiyyatın tənzimlənməsi vasitəsi kimi "Heydər Əliyev və vergi siyasəti" mövzusunda elmi-praktik kanfransın materialları" (2006), Bakı: s. 94-105.
3. Azərbaycan Respublikasının Vergilər Məcəlləsi (2009), Bakı: Qanun nəşriyyatı, 415 s.
4. "Налоги и налогообложение" Учебник (*под редакцией И.А.Майбурова*) (2009), М., 580 с.
5. "Vergilər Nazirliyinin fəaliyyəti haqqında məcmuə" (2010), Bakı: İstiqlal nəşriyyatı, 154 s.
6. Azərbaycanın statistik göstəriciləri (2009), Bakı: Səda nəşriyyatı, 534 s.

**Шарифов Азиз Ашраф оглы**
диссертант Азербайджанского Государственного экономического университета

**Аннотация**
**Роль совершенной налоговой системы в обеспечении продолжительной развитии национальной экономики**

*Цель исследования* – исследование роли совершенной налоговой системы с целью обеспечения продолжительного развития национальной экономики.

*Методология исследования* – сравнительные и синтез методы ретроспективного, экономического анализа.

*Результаты исследования* – изучение налогового опыта некоторых развитых стран и использование передового опыта и внедрение в налоговую систему Азербайджана.

*Ограничения исследования* – ограничения в получении информации о налоговой работе развитых государств и в целом мирового передового опыта.

*Практический значимость исследования* – использование налогового механизма в Азербайджанской республике как источника научных возможностей.

*Оригинальность и научная новизна исследования* – обеспечение развития национальной экономики и определение роли налоговой системе, как приоритета.

**Ключевые слова:** *национальная экономика, налоговая система, налоговый практики, налоговый механизм.*

**Sharifov Aziz Ashraf oglu**
PhD-Student Azerbaijan State Economic University

**Abstract**
**The role of perfect taxes system in providing of stable development of the national economy**

*Purpose* – investigation researching role of the national economy stable development for providing perfect taxes system.

*Design/methodology* – retrospective, comparative and synthesis methods of the economical analysis.

*Findings* - studying existence taxes experiences of the some develop countries and determining suitable advanced experience on making use of direction for perfection Azerbaijan taxes system.

*Research limitations/implications* – difficulties of obtaining exact information on characterizing taxes issue whole develop countries and requirements for suitable generalizations on that base.

*Practical implications* – opportunity usages as a scientific analysis resource on the taxes mechanisms perfections of Republic of Azerbaijan.

*Originality/value* – determination of the main priorities of the perfect taxes system on the direction of providing stabile improvement of the national economy.

**Keywords:** *taxes system, taxes experience, taxes mechanism, national economy.*

**JEL Classification Codes:** E62, H21, H3

Məqalə redaksiyaya daxil olmuşdur: 12.05.11.
Təkrar işləməyə göndərilmişdir: 17.05.11.
Çapa qəbul olunmuşdur: 03.07.11..